COP29 Baku Azerbaijan

Yaşıl dünya naminə həmrəy olaq!



# Ekosistemləri bərpa etməklə Qarabağ dünyanın ən yaşıl diyarına çevrilir

**İkinci Qarabağ müharibəsində məğlub edilən Ermənistan ordusunun faşist xisləti ilə əraziləri 30 il boyunca minalaması işğaldan azad edilən torpaqlarda təhlükəli vəziyyət yaradıb, sözün əsl mənasında, düşmən ölümsaçan qurğuları toxum kimi hər tərəfə səpib. Məqsədləri bu olub ki, keçmiş məcburi köçkünlərin doğma yurd yerlərinə qayıdışını ləngitsinlər. Ermənistanda istehsal edilən və digər ölkələrdən aldıqları minalarla ehtimal edilən bütün əraziləri çirkləndiriblər. Azərbaycan hayların ordusunu döyüş meydanında darmadağın etsə də üç ildən artıqdır ki, gizli düşmənlə mübarizə davam edir.**




Şanlı Qələbədən sonra ilkin mərhələdə işğaldan azad olunmuş ərazilərə gedən yolların təmizlənməsi, koridorların açılması və sonrakı mərhələdə isə hökumətin qarşıya qoyduğu prioritetlərə uyğun olaraq dağıdılmış, viran edilmiş iri şəhərlərin, kəndlərin partlayıcı sursatlardan təmizlənməsi əməliyyatları yerinə yetirilir. Həm sosial infrastruktur layihələrinin gerçəkləşdirilməsi üçün nəzərdə tutulan ərazilərin təmizlənməsi, həm də Böyük Qayıdışdan sonra insanların öz dədə-baba yurdlarında rahat və təhlükəsiz yaşamalarını təmin etmək ən ümdə vəzifə kimi qarşıda dayanır. Hazırda minaaxtaranlar, eyni zamanda ikinci dərəcəli yolların, su xətlərinin, kanalların, kənd təsərrüfatı təyinatlı ərazilərin minalardan təmizlənməsi işlərini də həyata keçirirlər.

Azərbaycan dünyada minalanmadan ən çox əziyyət çəkən ölkədir. Ölkə ərazisinin 12 faizi minalarla və partlamamış hərbi sursatlarla çirkləndirilib. Bu isə kənd təsərrüfatı üçün yararlı torpaq fondunun 28 faizi deməkdir. Məhz bu təhlükəli vəziyyətin aradan qaldırılması üçün ölkəmizdə minatəmizləmə agentliyi 1998-ci il iyul ayının 18-də yaradılıb. Prezident İlham Əliyevin 2021-ci il 15 yanvar tarixli Fərmanına əsasən Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin əsasında publik hüquqi şəxs statuslu respublika Minatəmizləmə Agentliyi təşkil edilib. Ötən müddət ərzində kifayət qədər böyük işlər görülüb. Beynəlxalq hərbi ekspertlərin araşdırmalarına görə, Qarabağ və Şərqi Zəngəzur ən çox çirklənmiş ərazi hesab edilir. Ermənistan otuz il işğalda saxladığı torpaqları başdan-başa minalayıb. Üç ildən artıqdır ki, Azərbaycan Ermənistanın mina terroru ilə mübarizə aparır. Təəssüf ki, burnunu hər yerə soxmağa adətkar olan Fransa, insan haqlarından danışan ABŞ Dövlət Departamenti, bəzi ermənipərəst dövlətlər, beynəlxalq təşkilatlar Ermənistanın Azərbaycana qarşı törətdiyi işğalı, soyqırımı, hərbi təcavüzü, mina terrorunu görməməzliyə vurur, bu barədə deyilən fikirləri eşitmək belə istəmirlər, haqqın, ədalətin qarşısında kar, kor olurlar. Bütün bu ikili standartlara Azərbaycan öz qüvvəsi, diplomatiyası və ordusu ilə son qoydu, işğalçı ölkə ağır şəkildə cəzalandırıldı, əsarətdə qalan torpaqları azad edərək ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. İşğaldan azad edilən ərazilərdə minatəmizləmə bir neçə üsulla aparılır. Bir qrup mütəxəssis xüsusi detektorlar vasitəsilə işləyir. Bundan başqa, zolaqların açılması üçün uzaqdan idarə olunan minatəmizləmə texnikaları çalışır. Burada tank, piyada əleyhinə mina, hətta müxtəlif yerlərdə xüsusi asılmış minalar aşkarlanır.

Minalar yer üzündə mövcud olan ən "çirkli" silah hesab edilir. Təxmini hesablamalara görə, erməni işğalçıları torpaqlarımıza bir milyondan çox mina basdırıblar, qəsdən və bilərəkdən yurd yerlərimizi ölümsaçan qurğularla zəhərləyiblər. Azad edilmiş ərazilər çox böyük fədakarlıq və peşəkarlıqla, həm də necə deyərlər, qarış-qarış irəliləməklə təhlükəli qurğulardan, partlamamış hərbi sursatlardan təmizlənir. Qarşıya qoyulmuş tapşırıqları fədakarlıqla yerinə yetirən yerli minaaxtaran qruplarla yanaşı, qardaş Türkiyədən gəlmiş mütəxəssislər də düşmənin torpaqlarımızda törətdiyi fəlakətin aradan qaldırılması ilə məşğuldurlar. Hərbi ekspertlərin qənaətinə görə, düşmən qadağan olunmuş üsullardan istifadə etməklə əraziləri çox ciddi şəkildə minalayıb. Bütün bunlara baxmayaraq, ərazilərdə minatəmizləmə prosesi tam gücü ilə davam etdirilir. İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən üç il ərzində yüzlərlə Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb. Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazım olacaq. Azərbaycanın Qarabağ regionunda Ermənistanın işğalı illərində yerləşdirilən mina və törədilən dağıntılar keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" proqramının tam şəkildə həyata keçirilməsinə ciddi maneə yaradır.



Mayın 30-da Zəngilanda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) birgə təşkilatçılığı ilə "Minaların ətraf mühitə təsirinin azaldılması: təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda 3-cü beynəlxalq humanitar minatəmizləmə konfransı keçirilib. Konfrans ölkəmizin üzləşdiyi mina probleminin dünyaya çatdırılması, humanitar minatəmizləmə sahəsində beynəlxalq tərəfdaşlığın gücləndirilməsi, mina və müharibənin digər partlayıcı qalıqları ilə çirklənmənin ətraf mühitə təsirini azaltmaq üçün maliyyə resurslarının səfərbər edilməsi məqsədi daşıyır. Konfransda, ümumilikdə 75 ölkədən 300-dən çox nümayəndə iştirak edib. İştirakçılar arasında bir sıra ölkələrin yüksəkvəzifəli şəxsləri, BMT-nin baş ofisinin rəhbər heyəti, nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri və müxtəlif ölkələrin minatəmizləmə mərkəzlərinin rəsmiləri, habelə ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklərin vəzifəli şəxsləri iştirak ediblər.

Beynəlxalq konfransın Zəngilanda keçirilməsinin böyük rəmzi mənası var. Rayonun Ağalı kəndi yenidən qurulan və keçmiş məcburi köçkünlərin qayıtdıqları ilk yaşayış məskənidir. Onların təhlükəsiz qayıdışı məhz minaaxtaranların gərgin əməyi sayəsində mümkün olub və insanların təhlükəsizliyi təmin edilib. Tədbirdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub. Müraciətdə qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərimizin 10 min 285 kvadratkilometri mina və partlamamış hərbi sursatlarla müxtəlif səviyyələrdə çirklənmiş hesab olunur. Kənd təsərrüfatı, əkinçilik üçün münbit torpaqların, eyni zamanda saysız-hesabsız heyvan və bitki növlərinin, çaylar, göllər, bulaqlar, kəhrizlər və su quyularının mina və müharibənin digər partlayıcı qalıqları ilə ciddi şəkildə çirklənməsi, habelə minaların mənfi təsirinin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilir. BMT Baş katibinin köməkçisi, BMT-nin İnkişaf Proqramının Avropa və Müstəqil Dövlətlər Birliyi üzrə Regional Bürosunun direktoru İvana Jivkoviç minatəmizləmə fəaliyyətinin ətraf mühitin bərpası və milli inkişaf proqramları ilə inteqrasiyasının vacibliyi haqqında danışıb. Bildirib ki, minaların ətraf mühitə təsirini azaltmaq missiyası yalnız partlayıcı sursat problemini aradan qaldırmaq deyil, eləcə də gələcək nəsillər üçün təhlükəsiz həyat, kənd təsərrüfatı və biomüxtəlifliyin təmin edilməsidir. Başlıca məqsəd zərərçəkmiş torpaqları inkişaf edən ekosistemlərə və davamlı icmalara çevirməkdir.



Tədbirdə COP29-un məqsədlərinə uyğun olaraq, iqlim davamlılığı, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonası yaratmaq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Ekosistemləri bərpa etməklə və dayanıqlı təcrübələri yenidən tətbiq etməklə işğaldan azad edilən torpaqları yaşıl zonaya çevirmək uğrunda əsl mücadilə aparılır. Beynəlxalq konfransın açılış günündə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi və BMT-nin İnkişaf Proqramı arasında niyyət bəyannaməsi imzalanıb. Prezident İlham Əliyev Zəngilanda "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər edilməsi" mövzusunda keçirilən III Beynəlxalq Minatəmizləmə Konfransının iştirakçılarına müraciətində ciddi faktlar açıqlanıb. Ölkə başçısı bildirib ki, mina partlayışları insanların həyatına təhlükə yaratmaqla və ümumiyyətlə, yaşamaq hüququnu sual altına qoymaqla bərabər, ətraf mühitə də böyük ziyan vurur. Belə ki, partlayışlar zamanı yaranan plastik tullantılar ekoloji fəsadlara səbəb olaraq torpaqların strukturuna mənfi təsir göstərir. Uzun müddət torpağın içində qalan minalar zərərli kimyəvi reaksiyalara gətirib çıxarır.

Müraciətdə qeyd olunub ki, minalara görə istifadə olunmayan torpaqlar təbii eroziyaya və aşınmaya məruz qalır. Bu baxımdan, bugünkü konfransın Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 öncəsi təşkil edilməsi xüsusi önəm daşıyır. Azərbaycan 30 ilə yaxın davam edən münaqişə və torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində ərazilərinin minalarla çirklənməsi problemindən əziyyət çəkir və dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır. Ölkə ərazisinin təxminən 12 faizi ilkin qiymətləndirmələrə görə 1,5 milyon mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib. Əlbəttə, Prezidentin açıqladığı statistika dünyada insan haqlarından danışan qurumları, dövlətləri ciddi narahat etməlidir. Baxmayaraq ki, bu qurumlar insan haqları dedikdə 30 il ərzində məcburi köçkünlərimizi yada salmayıblar. Hüquqları tapdalanan, torpağından didərgin düşən, yaxınlarını itirən soydaşlarımız onların yadına düşməyib. Ancaq ermənilər gülə-gülə, öz istəkləri ilə Xankəndini tərk edəndə bu qurumlar, dövlətlər hədə dilində danışır, insan haqları deyib aləmə car çəkirdilər.

Mayın 31-də Bakıda keçirilən "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusuna həsr olunmuş III Beynəlxalq Minatəmizləmə Konfransı başa çatıb. Konfransda Minatəmizləmə Konfransında Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini, Əlaqələndirmə Qərargahının İdarələrarası mərkəzi katibliyinin rəhbəri Nüsrət Süleymanov bildirib ki, noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfrasının 29-cu sessiyasında (COP29) da diqqəti bu məsələyə yönəltməliyik: "Minalar həm suya, həm də torpağa böyük təhdiddir. Biz minalar da daxil olmaqla, insanlığa qarşı təhlükələri aradan qaldırmalıyıq. COP29-a ev sahibliyi edən ölkə olaraq, biz minaların yaratdığı təhlükəni bəyan etməliyik. Azərbaycanda keçiriləcək COP29-da da bu məsələyə diqqəti yönəltməliyik". Bununla yanaşı, konfransın yekunlarına dair bəyannamə də qəbul edilib.

Qeyd edək ki, müharibənin başa çatmasından ötən üç ildən çox müddətdə əksəriyyəti mülki vətəndaş olan 361 nəfər mina qurbanı olmuş, onlardan 68-i həlak olmuş, 293-ü isə ağır yaralanmışdır. Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaş minalardan zərər çəkmiş, onlardan 358-i uşaq, 38-i isə qadınlardır. Mina qurbanlarının sayının gündən-günə artmasının əsas səbəbləri sırasında Ermənistanın Azərbaycan ərazisində basdırdığı minaların dəqiq xəritələrini təqdim etməkdən imtina etməsi, keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı digər obyektlərə tələ xarakterli minalar yerləşdirməsidir. Ermənilər tərəfindən 2020-ci ildən 2023-cü ilə qədər uzunluğu 500 kilometrədək olan yeni minalanmış zonalar yaradılmış, yenidən Azərbaycanın ərazisinə minalar basdırılmışdır. Beynəlxalq konvensiyalara görə, müharibə başa çatanda əraziləri minalayan tərəf qarşı tərəfə xəritələri verməlidir. Amma Ermənistanın minaladığı ərazilərin dəqiq xəritələrini verməməsi işi çətinləşdirir və insanların minaların yeni qurbanına çevrilmək riskini artırır. ANAMA-dan bu günə qədər 140 min hektar sahənin minalardan təmizlənməsi haqqında məlumat verilib. Bütün çətinliklərə baxmayaraq, qüdrətli Azərbaycan 10 min kvadratkilometrdən çox ərazidə mina təhlükəsini aradan qaldıracaq, torpaqlar əkinəyararlı vəziyyətə gətiriləcək, keçmiş məcburi köçkünlərin doğma yurd yerlərinə qayıdışı uğurla başa çatdırılacaq. Qalib ölkənin qazandığı zəfər bir daha onu göstərir ki, Ermənistanın torpaqlarımıza səpdiyi ölüm "toxum"ları da məhv ediləcək, Qarabağ və Şərqi Zəngəzur dünyanın ən yaşıl zonasına çevriləcək, keçmiş məcburi köçkünlər bu ərazilərdə asudə və xoşbəxt həyat sürəcəklər.

**Salman ALIOĞLU,**
**"Respublika".**

*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

COP29
BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası